# *İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ*
# *ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННЫХ И КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ*
# *USE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES*

**UOT 371**

***Ceyran Abdulәzim qızı Orucova***
*pedaqogika üzrә fәlsәfә doktoru,*
*Azәrbaycan Dövlәt Pedaqoji Universitetinin baş müәllimi*
*https//orcid.orq.0000 – 0002 – 3803 – 4105*

## MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR (KEYS-TEXNOLOGİYASI)

***Джейран Абдулазим гызы Оруджева***
*доктор философии по педагогике,*
*старший преподаватель,*
*Азербайджанского Государственного Педагогического Университета*

## СОВРЕМЕННЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ (КЕЙС-ТЕХНОЛОГИЯ)

***Jeyran Abdulazim Orujova***
doctor of philosophy in pedagogy,
*senior lecturer at*
*Azerbaijan State Pedagogical University*

## MODERN PEDAGOGICAL TECHNOLOGIES (CASE-TECHNOLOGY)

**Xülasә.** Mәqalәdә müasir pedaqoji texnologiyalardan biri olan Keys texnologiyasının üstünlüklәrindәn bәhs olunur. Burada klassik tәhsil modeli ilә işlәyәn mәktәbin, tәlim prosesi zamanı yeni texnologiyalardan istifadә etmәklә әnәnәvi dәrsdәn fәrqlәnәn, tәlimdә yeknәsәqliyi vә monotonluğu aradan qaldırmağa xidmәt edәn yeni – Keys texnologiyası әlә alınır. Göstәrilir ki, bu texnologiya tәlim alanların fәaliyyәt formasını daima dәyişmәyә, eyni zamanda, onların sağlamlığını qorumaq üçün lazım gәlәn tәmrinlәri hәyata keçirmәyә imkan verir.
***Açar sözlәr:*** *keys-texnologiyalar, әnәnәvi tәhsil, müasir texnologiyalar, tәlim, keyfiyyәt, informasiya-kommunikasiya texnologiyaları, yeni standartla.*

**Резюме.** В статье рассматриваются преимущества технологии Keys, одной из современных педагогических технологий. Обсуждаются возможности кейс-технологий, использование которой в школах с традиционными методами обучения, позволяет изменить форму ведения урока так, чтобы освободиться от однообразия и монотонности сопутствующими всем традиционным методам обучения. Показываются также возможности этих методов в создании во время уроков, постоянно меняющейся атмосферы и в деле проведения упражнений с целью охраны здоровья учащихся.
***Ключевые слова:*** *кейс-технологии, традиционное образование, современная технология, обучение, качество, информационные и коммуникационные технологии, новые стандарты*

**Summary.** The article discusses the advantages of Keys technology, one of the modern pedagogical technologies. The possibilities of case technologies are discussed, the use of which in schools with traditional teaching methods makes it possible to change the form of teaching a lesson so as to get rid of the sameness and monotony associated with all traditional teaching methods. It also shows the possibilities of

these methods in creating an ever-changing atmosphere during the lessons and in conducting exercises in order to protect the health of students.

***Key words:*** *case technology, traditional education, modern technology, training, quality, information and communication technologies, new standards*

Dövlət təhsil standartları ümumi təhsil qarşısında əsas məsələ kimi şagird şəxsiyyətinin inkişafını qoyur. Müasir təhsil nəticəsi bilik, bacarıq və vərdişlər şəklində olan ənənəvi təhsili inkar edir, real fəaliyyət növləri formalaşdırmağı tələb edir.

Qarşıya qoyulmuş məsələ, öz növbəsində, müəllimlərdən yeni standartları həyata keçirərkən ona uyğun olan fəaliyyət sistemindən istifadə edilməsini tələb edir. Bu zaman təlim texnologiyaları da dəyişir və informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi hər bir fənn üzrə təlim çərçivəsini genişləndirmək üçün yeni imkanlar yaradır.

Yeni şəraitdə klassik təhsil modelini həyata keçirən ənənəvi məktəbin az məhsuldar olması aşkar edilmişdir. Müəllimin qarşısında bilik, bacarıq və vərdişləri toplamağa yönəlmiş ənənəvi təlimi şagird şəxsiyyətini inkişaf etdirməyə yönəlmiş təlim prosesinə çevirmək problemi yaranmışdır. Təlim prosesi zamanı yeni texnologiyalardan istifadə etməklə ənənəvi dərs formasından uzaqlaşmaq, təhsil prosesində yeknəsəqliyi və monotonluğu (yoruculuğu) aradan qaldırmağa, təlim alanların fəaliyyət formasını dəyişmək üçün şərait yaratmağa və şagirdlərin sağlamlığını qorumaq lazım olan prinsipləri həyata keçirməyə imkan verir. Texnologiya vasitələrinin seçilməsində fənnin məzmunu, dərsin məqsədi, təlimalanların hazırlıq səviyyəsi və yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Əksər halda pedaqoji texnologiyalar aşağıdakı üç istiqamətdə qruplaşdırılır:

• *Üsulların məcmusu* – pedaqoji biliklər sahəsi, fəaliyyət prosesinin xüsusiyyətlərini əks etdirən xarakteristikalar, onların qarşılıqlı təsir xüsusiyyətləri, təlim-tərbiyə prosesinin lazımı effektivliyini təmin etmək üçün idarəetmə;

• *Sosial təcrübənin ötürülməsi üçün forma, metod, priyom və vasitələrin məcmusu,* həmçinin bu prosesin texniki təchizatı;

• *Təlim-dərketmə prosesi* və ya müəyyən fəaliyyətin, əməliyyatın ardıcıllığı ilə bağlı və qarşıya qoyulmuş məqsədə çatmaq istiqamətində müəllimin konkret fəaliyyət üsullarının məcmusu.

Təhsildə müasir tələblərin təmin olunması üçün bir çox aktual, yeni texnologiyalar vardır ki, bunlardan biri də *Keys texnologiyasıdır.*

*Keys və keys metodu nədir?*

Keys (ingiliscə *case*) hər hansı bir sahədə konkret vəziyyətin və ya hadisənin təsviridir: sosial, iqtisadi, tibbi və s.. Bir qayda olaraq, keys sadəcə təsvirdən ibarət deyil, həm də müəyyən problemi və ya ziddiyyəti ehtiva edir və real faktlara əsaslanır.

Beləliklə, bir keysi həll etmək, təklif olunan vəziyyəti təhlil edərək optimal həll yolunu tapmaq deməkdir. Həkim hər dəfə xəstəyə diaqnoz qoyub müalicə təyin edərkən, əslində bir keys həll edir. Hüquq məsləhətçisi də keysi həll edərkən, işin incəliklərini öyrənir və müştəriyə ən uyğun çıxış yolunu təklif edir. Menecer biznes prosesinin bütün mərhələlərində keysləri həll edir: hansı məhsulu istehsal etməli, harada satmalı, alıcıları necə cəlb etməli, hansı təchizatçı və tərəfdaşları seçməli.

Nisbətən yaxınlarda təhsildə keys texnologiyasından aktiv istifadəyə başlanılıb və indi bu yanaşma ən effektiv tədris texnologiyalarından birinə çevrilib. Keys təlim metodunun ənənəvi tədris metodlarından hansı üstünlükləri var? Ən vacib üçünü göstərək:

• *Praktik yönümlü olması.* Keys metodu nəzəri bilikləri praktiki məsələlərin həllində tətbiq etməyə imkan verir. Bu yanaşma biznes və proseslər haqqında sırf akademik təhsili kompensasiya edərək, təlimalanları universitetdə mühazirə oxumaqdan və ya dar bir iş sahəsində təcrübə keçməkdən daha geniş bilgilərlə təmin edir.

• *İnteraktiv formatda olması.* Keys metodu təhsilalanların yüksək emosional və fəal iştirakı hesabına materialın daha effektiv mənimsənilməsini təmin edir. İştirakçılar bütün varlıqları ilə mövzuya qərq olurlar: işin əsas bir qəhrəmanı var, komanda özünü onun yerinə qoyur və onun adından problemi həll edir. Bu zaman tədrisdə əsas diqqət hazır biliyin mənimsənilməsinə deyil, onun əldə olunmasına yönəldilir.

• *Xüsusi bacarıqların aşılanması.* Keys metodu universitetdə tədris olunmayan, lakin real iş prosesində son dərəcə zəruri olan yumşaq bacarıqları (soft skills) təkmilləşdirməyə imkan verir.

Həyati vəziyyətlərin birgə təhlili universal bir tədris üsuludur, buna görə də işlərin həllinin keys analoqlarına antik dövrlərdə də rast gəlmək olar. Spartalı gənclər döyüş meydanında yarana biləcək situasiyaları öz müəllimləri ilə araşdırdılar. Tələbələri ilə "hadisələri" müzakirə etmək və hərtərəfli araşdırmaq Sokratın sevimli metodu idi ki, buna da "Sokrat metodu" deyilir.

Keys metodu hazırkı formasında 1870-ci illərdə Harvard Hüquq Məktəbində yaranıb və 1920-ci illərdən biznes elmləri təhsilində özünü təsdiqləyib. İlkin MBA (açıqlaması Master of Business Admistration olan MBA ana dilimizə Biznesin İdarə Olunması deyə tərcümə olunur) proqramlarının müəllimləri iş adamları deyil, elm adamları idi və onlar belə bir faktla üzləşdilər ki, tələbələrə biznesi necə idarə etməyi təkcə mühazirə və dərsliklərlə öyrətmək mümkün deyil.

Dərsliklərə alternativ olaraq böyük təcrübəyə malik sahibkarlar və aparıcı şirkətlərin top-menecerləri ilə müsahibələr və onların əsasında konkret iş problemini necə həll etdikləri, habelə onların fəaliyyətinə təsir edən amillər haqqında tərtib olunmuş ətraflı hesabatlardan istifadə olunmağa başlanıldı. O vaxtdan bəri biznes situasiyalarının təhlili biznes məktəblərində gələcək menecerlərin hazırlanmasında mühüm elementə çevrilmişdir. Harvard Biznes Məktəbinin professorları kitablar, tədris təlimatları, araşdırma nümunələri, nəşr və müəllimlər üçün seminarlar təşkil etməklə, bu metodun geniş yayılmasına fəal töhfə vermişlər. İndi tədris metodu kimi "keys həlli" bütün aparıcı biznes məktəblərində, universitetlərdə və korporasiyalarda istifadə olunur.

*Keys metodunun fərqli xüsusiyyətləri.* Keyslərin həlli bir neçə mərhələdən ibarət olur:

1) təklif olunan işin tədqiqi;

2) çatışmayan məlumatların toplanması və təhlili;

3) problemin mümkün həlli yollarının müzakirəsi;

4) ən yaxşı həllin işlənib hazırlanması.

Hər addımın sadə olduğu görünür. Əslində, burada keyslə ilk dəfə məşğul olan iştirakçıları çaşdıra biləcək bir neçə "görünməyən çalaçuxurlar" var.

*Birincisi,* məsələnin dəqiq həlli yoxdur. Bir optimal həll ola bilər (real vəziyyətlərin hamısında həyata keçirilə bilməsə də), lakin bir neçə effektiv həlli həmişə var.

*İkincisi,* verilənlər bir-biri ilə ziddiyyət təşkil edə və ya daima dəyişə bilər. Keys real faktlar üzərində qurulur və real həyati vəziyyəti təqlid edir. Belə ki, həyatda bu cür problemlərlə mütəmadi olaraq üzləşirik.

*Üçüncüsü,* bir qayda olaraq, keyslər məhdud zaman çərçivəsində həll edilir. Biznesdə bütün təfərrüatları anlamaq və tam mənzərəni görmək nadir hallarda mümkün olur.

*Keyslər necə yazılır?*

Keys özündə iki komponenti birləşdirir: tədqiqat və təhsil, buna görə də onun yaradılması prosesi, eyni zamanda, bir biznes məsləhətçisi və müəllimin işini əhatə edir.

Bir qayda olaraq, hər bir keys yazılışı müəyyən bir şirkətdə baş vermiş bir vəziyyətlə əlaqələndirilir. Lazım gələrsə, bizneslə bağlı situasiya süni şəkildə kəskinləşdirilir və oraya müzakirələrə səbəb olacaq problemlər əlavə olunur. Keysin reallığa daha yaxın olması üçün o, şirkət nümayəndələri ilə sıx əməkdaşlıq şəraitində hazırlanır: işin müəllifləri problemi top-menecerlərlə müzakirə edir, müəssisə işçiləri ilə müsahibələr aparır və müxtəlif şöbələrdən məlumat toplayırlar. Nəhayət, keysin məzmunu, açıq mənbələrdən alınan şirkət hesabatları, bazar araşdırmaları, investorlar üçün statistika haqqındakı məlumatlar ilə tamamlanır.

Keysin məqsədi xüsusi bacarıqların öyrədilməsi və sınaqdan keçirilməsi olduğundan, o, iştirakçıların əldə etməli olduğu bilik və praktiki bacarıqlar kompleksini ehtiva etməli, həmçinin özünün çətinlik səviyyəsini və əlavə tələblərini də müəyyənləşdirməlidir.

*Yüksək keyfiyyətli Keys beş əsas aspekti özündə birləşdirməlidir:*

1. Vizual tərtibat və izahat formasının köməyi ilə şirkətin dəyərləri və mədəni xüsusiyyətləri haqqında ətraflı məlumat;

2. Keysdə şirkət üçün əhəmiyyətli və birqiymətli həlli olmayan maraqlı biznes-situasiya təsvir olunmalıdır;

3. Problem həllinin şirkət üçün aktuallığı: əsas olaraq yaxın zamanda baş vermiş və indi həll tələb edən real situasiyaya götürülür;

4. Problemlə əlaqədar olan ilkin və statistik verilənlərin yetərli olması;

5. Keys yazılışında şirkətin top-menecerinin iştirakı.

*Keyslər istifadə formatına və mürəkkəblik səviyyəsinə görə fərqlənirlər.*

İstifadə formatına görə olan fərqlər:

• *İcra keysləri (1-2 səhifə və daha az).* İştirakçılar keyslə birbaşa tədbirdə tanış olur və onu fərdi qaydada və ya moderatorla müzakirə formatında həll edirlər. Bu cür keyslər nəzəri materialı izah etmək və ya xüsusi, dar çərçivə daxilindəki vərdişləri yoxlamaq üçün istifadə olunur.

• *Tematik keyslər (3-5 səhifə).* Onlar təlim sessiyasında və ümumi müzakirə zamanı təlimalanları məlumatlandırmaq üçün nəzərdə tutulub və burada bəzən iştirakçılardan qısa ilkin hazırlıq tələb olunur.

• *Harvard keysləri (orta hesabla 20-25 səhifə).* Buraya bir neçə gün ərzində müstəqil komanda işi və həllin təqdimatı daxildir.

Mürəkkəblik səviyyəsinə görə olan fərqlər:

• *Yüksək dərəcədə strukturlaşdırılmış.* Əlavə məlumatların miqdarı minimum səviyyədədir. Onların tərkibində konkret həll modeli və optimal həll var.

• *"Kiçik eskizlər" (qısa vinyetlər).* Yalnız əsas anlayışları təqdim edən, 2-3 səhifəlik əlavələr daxil edilir. İştirakçıların işləməsi üçün əlavə biliklər tələb olunur.

• *Böyük strukturlaşdırılmamış keyslər.* Bunlar ən çətin keyslərdir. İştirakçılar çox sayda zəif strukturlaşdırılmış məlumatın öhdəsindən gəlməlidirlər. Keysə lazımsız, əlavə məlumatlar daxil ola bilər və yaxud bəzi vacib məlumatlar olmaya bilər.

*Klassik və ya Harvard keysinin quruluşu*

| *Sıra №* | *Keysin əsas məzmunu*<br>*20-səhifə* | *Əlavə məlumat*<br>*10 səhifə* |
|---|---|---|
| 1 | Problemli situasiyanın qısa təsviri və keys məsələsinin qoyuluşu | Statistika və faktlar:<br>Keys ümumi məlumatdan əlavə analiz üçün verilənlərə və statistik faktlara malik olmalıdır |
| 2 | Şirkətin, onun daxili və xarici mühitinin təsviri | Qlossari (mətndəki arxaik, köhnə sözlərin lüğəti):<br>Keysə onun əsas anlayışlar və terminlərini izah edən lüğət əlavə edilir |
| 3 | İstehsalat sahəsinin xüsusiyyətləri, dinamikası və onun müasir vəziyyətinin təsviri | Əlavə mənbələrə istinad:<br>Bəzən keysə öyrənmək üçün təklif olunan əlavə materiallara istinad mənbələri də daxil edilir |
| 4 | Problemli situasiyanın əsas elementlərinin ətraflı təsviri | |

*Xarici məktəblərin timsalında təhsildə keys metodundan istifadə*

Keys-təhsili (Case-study) metodu ilk dəfə Harvardda (ABŞ) istifadə edilmiş və o vaxtdan bəri Harvard bütün dünyada keys təhsilinin formasını böyük ölçüdə müəyyən etmişdir. Harvard Biznes Məktəbində (HBS) təhsil demək olar ki, bütünlüklə keyslərin təhlilinə əsaslanır və məktəbin kitabxanasında dünyada ən böyük keys kolleksiyası vardır. Klassik Harvard keysi – həcminə görə böyük bir keysdir (20-25 səhifə mətn, üstəgəl 8-10 səhifə təsvirlər və əlavələr) ki, orada baş qəhrəman və onun hekayəsi verilmişdir. HBS-də keys metodundan istifadənin özəlliyi yeganə düzgün həllin axtarışıdır.

D. Kennedi adına İdarəetmə Məktəbində (John F. Kennedy School of Government, Harvard Kennedi School – HKS) keyslərdən dövlət qulluqçularının hazırlanması üçün istifadə olunur və onların məşğələ mövzuları dövlət siyasəti və liderlik məsələləri ilə bağlıdır. Burada keysin əsas qəhrəmanı, bir qayda olaraq, dövlət qulluğundadır və ya qeyri-kommersiya təşkilatının vəzifəli şəxsidir. Bu keyslər, misal üçün, "Ruandanın soyqırımdan sonra dirçəlişi", "Katrina qasırğası" və s. bu kimi mövzuları əhatə edə bilər. HKS-də keyslərin müzakirəsi daha çox elmi və konseptual xarakter daşıyır, biznes məktəblərində isə keys metodu konkret problemin həlli ilə bağlı fəaliyyət planının hazırlanmasıdır.

Tibb təhsilində keys-metodunun istifadəsinə nümunə olaraq Harvard Tibb Məktəbində (Harvard Medical School) verilən təlimi göstərə bilərik. Ənənəvi olaraq, gələcək həkimlərə ancaq üçüncü kursdan xəstələrlə işləməyə icazə verilirdi və ilk iki il onlara yadda saxlamaq (əzbərləmək) şərtilə çoxlu materiallar vasitəsi ilə yalnız nəzəri təhsil verilirdi. Bu zaman tələbələr biologiya, fiziologiya, anatomiya, biokimya və digər fənləri öyrənirdilər. 1985-ci ildə məktəbin dekanı Daniel Tosteson tələbələrin informasiya yükünü azaltmaq və aktiv təlim elementlərini proqrama daxil etmək üçün keyslərdən istifadə etməyi təklif etdi.

Tibbi keyslərlə işləmək biznes-keyslərin həllindən öz formatına görə fərqlənir. Tələbələr hər biri 6–8 nəfər olmaqla kiçik qruplarla işləyir və lazımi materialları birbaşa dərsdə alır, onlarla əvvəlcədən tanış olmurdular. Keys 5-6 hissədən ibarət olur və bir neçə məşğələdə ardıcıl olaraq öyrənilir. Bir qayda olaraq, birinci hissədə xəstənin ilkin vəziyyəti və xəstəliyin əlamətləri, ikinci hissədə ilkin müayinənin nəticələri, sonrakı hissələrdə test nəticələrinə, mütəxəssislərin diaqnozuna, təyin olunmuş müalicəyə, xəstənin bu müalicəyə reaksiyası və müalicənin sonrakı gedişatına həsr olunurdu.

Müzakirə zamanı tələbələrdən hazır həll yolları təklif etmələri tələb olunmayır. Məqsəd əlavə suallar vermək, fərziyyələr irəli sürmək, biliklərdəki boşluqları müəyyən etmək və bunun nəticəsində onların bir neçə gün ərzində kitabxanada işləməklə mövzu üzrə materialları özözünə öyrənilməsi planını formalaşdırmaqdır. Bundan sonra müəllim keysin növbəti hissəsini müzakirəyə təqdim edir. Beləliklə, keyslərin təlimə daxil edilməsi ilə tələbələr artıq ilk kurslarda sırf nəzəri təlim əvəzinə tibbi təcrübə dünyasına daxil olurlar.

Avropa biznes-təhsili ənənəsində isə əvvəlcə bir qədər fərqli təlim formatı yaradılmışdır. Fransa, İsveçrə, Böyük Britaniya və digər Avropa ölkələrində ilk MBA proqramları orta hesabla 12 ay davam edirdi (ABŞ-da olduğu kimi iki illik proqramlar əvəzinə) və artıq biznesin idarə edilməsində praktik təcrübəsi olan tələbələr üçün nəzərdə tutulmuşdu.

**Problemin aktuallığı.** Dövlət təhsil standartları təlimdə əsas məsələ kimi şagird şəxsiyyətinin inkişafını qarşıya qoyur. Bu məsələ, öz növbəsində, müəllimlərdən də iş fəaliyyətləri zamanı yeni standartları həyata keçirərkən yeni texnologiyalardan istifadə olunmasını tələb edir. Bu baxımdan keys texnologiyasının öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə ən yeni və aktual təlim texnologiyası olan keys texnologiyası haqqında əsas tarixi, nəzəri və praktik bilgilər sistemləşdirilmiş, onların üstünlükləri misallar vasitəsilə göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Təlim texnologiyalarının dəyişməsi ilə əlaqədar olaraq, informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi təhsil müəssisələrində hər bir fənn üzrə təlim çərçivəsini genişləndirmək üçün geniş imkanlar yaradır. Bu baxımdan təlim prosesində keys texnologiyasından praktik olaraq istifadə zərurəti yaranır.

**Ədəbiyyat:**

1. Pedaqogika: Dərs vəsaiti / Y. Talıbov, Ə. Ağayev, İ. İsayev, A. Eminov. – Bakı: Adiloğlu, – 2006.
2. Paşayev, Ə. Pedaqogika. / Ə. Paşayev, F. Rüstəmov, – Bakı, Elm və təhsil, – 2010.
3. Педагогические науки, Выпуск №3 (105), Март, 2021.
4. Безновская, В.В. Выбор образовательных технологий: традиционная модель или инновационный подход? Вестник МАДИ, 2014, № 4, с. 3-7.

**E-mail:** ceyran.orucova@yahoo.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **H.A. Cəfərov,**
*ped.ü.fəls.dok., dos.* **S.A. Orucova**
**Redaksiyaya daxil olub:** 12.04. 2022.